AZƏRBAYCAN

3-4’2025

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: İntiqam QASIMZADƏ

Baş redaktor müavini: Südabə AĞABALAYEVA

Məsul katib: Vüsal NURU

Şöbə müdirləri: Məmməd ORUC,
Qəşəm NƏCƏFZADƏ,
Mübariz CƏFƏRLİ,
Azad YAŞAR

Redaksiyanın ünvanı:
Bakı - Az1000
Xaqani küçəsi, 25

Telefonlar:
Redaksiya –
498-78-10
493-75-81

Mühasibat –
493-29-41

Çapa imzalanıb:
14.03.2025
Sifariş 584
Tiraj 500
Kağız formatı
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
17,2 şərti çap vərəqi

E-mail:
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
www.azyb.az

Qiyməti
2 manat

Bakı şəhəri, “Azərbaycan” nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur

Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.
Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Məhəmməd ÖMƏR QAZANÇI

İraq türkman ədəbiyyatında "Usta Fəttah Kəhrizçi" dastanı

Güney Azərbaycanın tanınmış şairi Məhəmmədhüseyn Şəhriyarın (1905-1988) "Heydərbabaya salam" adlı poemasına İraq türkman şairlərinin qələmə aldığı nəzirələrin sayı gündən-günə artır. Bunun son nümunəsi Mahmud Qasaboğlunun "Usta Fəttah Kəhrizçi dastanı" adlı əsəridir. Köhnə və yeni əlifba ilə Türkman Mətbuat Agentliyinin (TEBA) nəşr etdirdiyi əsər 2023-cü il sentyabrın 29-da Ərbildə təşkil olunmuş möhtəşəm bir imza tədbiri ilə oxuculara təqdim edildi.



Məhəmməd Ömər Qazançı və Mahmud Qasaboğlu

"Heydərbabaya salam" poemasının 76 beşlikdən ibarət birinci hissəsi 1954-cü ildə əvvəlcə 30, sonra əlavələr edilməklə 49 beşliyə çatan ikinci hissəsi 1964-cü ildə Təbrizdə çap olunmuşdur. Yetmiş dilə tərcümə olunan əsərin birinci bölümü Türkiyədə İstanbul Universitetinin müəllimi və Şərqşünaslıq İnstitutunun qurucularından professor Əhməd Atəş tərəfindən 1955-ci ildə "Türk yurdu" dərgisində oxuculara tanıdılmışdır. 1964-cü ildə Əhməd Atəş Ankarada "Şəhriyar və Heydərbabaya salam" adlı kitab nəşr etdirmişdir. Ə.Atəş kitaba yazdığı ön sözdə şairin həyatı və əsərləri, eləcə də "Heydərbabaya salam" poemasının məzmunu, dəyəri və bədii xüsusiyyətləri haqqında gəldiyi elmi qənaətləri qələmə almışdır[1].

Bizim ədəbi mühitdə ilk dəfə İbrahim Daquqlunun bir məqaləsi, sonra Əta Tərzibaşının Təbrizə səfərindən sonra şairin özü və poeması haqqında başqa bir məqalə çap olunmuşdur. Hər iki məqalə 1964-cü ildə "Qardaşlıq" dərgisində nəşr olunub[2]. Ə.Tərzibaşı şairlə görüşünü belə xatırlayır: "İyul ayında İrana etdiyimiz səfərdə Təbrizdə özü ilə görüşdüm. Çox yaşlandığını, ruh düşkünlüyü içində, pərişan və kədərli vəziyyətdə gördüm. Bir vaxtlar əfyun (maddə) asılılığı olsa da, yəqin ki, bu bəladan xilas olmanın çarəsini təsəvvüf və dini əqidəyə bağlılıqda axtarmış, aldığı azacıq pensiya ilə kifayətlənərək, Təbrizdəki evində özünü ibadətə həsr etmiş, inzivaya çəkilərək çox sadə həyat tərzinə keçmişdir"[3].

Şair ilə bağlı müşahidələrini ifadə etdikdən sonra Ə.Tərzibaşı onun həyat və yaradıcılığı haqqında geniş məlumat vermir. "Dəyərli şair Şəhriyar ilə görüşümdə onun orada təqdir görüb-görmədiyini soruşdum: - Əziyyət görməyim, təqdir istəmirəm" şəklində cavab verdiyini diqqətə çatdırır. Tərzibaşı məqaləsinin sonunda "Heydərbabaya salam" poemasının ikinci hissəsindən səkkiz beşliyə yer verərək yazır: "Buradakı dördüncü beşlik hələlik nəşr olunmayıb, digər beşliklərlə birlikdə şairin öz dilindən qeydə alınıbdır"[4]. Bu qeydi Tərzibaşı Məhərrəm Enginin "Türk kültürü" dərgisində nəşr etdirdiyi ikinci "Heydərbabaya salam" poemasına işarə edərək məqsədli şəkildə göstərir, çünki o vaxt Məhərrəm Engin "Türk kültürü" dərgisində Şəhriyarı "1964-cü ilin ən böyük hadisəsi" kimi dəyərləndirdiyi "Heydərbabaya salam" poemasını və ya poemaya yazılan nəzirələrlə birlikdə türk oxucularına tanıtmış[5], "Heydərbabaya salam" poemasının ikinci hissəsinin 30 beşlikdən ibarət olduğunu qeyd etmişdi. Tərzibaşı isə Şəhriyarın poemaya yeni bir beşlik əlavə etdiyinə, beləcə onu 31 beşliyə çatdırdığına eyham vurubdur.

Əslində Şəhriyar o tarixlərə qədər ikinci "Heydərbabaya salam" poemasını bitirməmişdi. Hələ də poema üzərində işləyirdi, yeni beşliklər əlavə edirdi. Yəni müəyyən vaxtdan sonra bu beşliklərin sayı 49-a çatmışdı. Beləliklə, poema hər iki hissəsi ilə birlikdə 125 beşliyədək artmışdı[6].

İbrahim Daquqlunun məqaləsi isə Tərzibaşının məqaləsindən əvvəl nəşr olunmuşdur. Araşdırıcı Ə.Atəşin hazırladığı kitabdan təsirlənərək həmin kitaba yazılmış ön sözdən istinadlarla yazmışdır. Məqalədə poemanın 15 beşliyi bədii təhlillər əsasında verilir.

Bu iki məqalədən sonra əsər şairlərimizə çox təsir etmişdir, çünki geniş bir auditoriyanın başa düşə biləcəyi üslubda yazılmışdır. Bu üslub bizim ayrı-ayrı bölgələridə işlənən şivələrə çox yaxın sayılacaq Güney Azərbaycan ləhcəsindədir. Başqa sözlə, türk dünyasının hər yerində əks-səda doğuran bu əsərin bizdəki təsiri daha yüksəkdir. Birol İpəyin təsbitinə görə, əsərə Türkiyədə 23-dən çox şair 28 nəzirə yazmışdır[7].

Gəldiyimiz qənaətə görə, İraq türkmanlarının yazdığı nəzirələrin sayı 30-dan çoxdur. "Heydərbabaya salam" poemasında təhkiyə, ana fikir, nəzm və ölçü necədirsə, nəzirələrdə də təxminən elədir. Bu nəzirələrin kitablaşdırılanları nəşr tarixinə görə aşağıdakı ardıcıllıqla göstərilir; amma başqa nümunələr də var. Bunlar çox məhdud və ya azsayla beşliklərdən ibarətdir, kitab şəklindəs çap olunmadığından bəzi dərgi və qəzetlərdə yer alıbdır.

1. Hüseyn Əli Mübarək. "Tuzxurmatu". (1965), 127 beşlik; 2. İsmayıl Sərttürkman. "Gürgür babaya salam". (1965), 101 beşlik; 3. Fərəh Gökqaya. Yurdum Kərkük. (1968), 42 beşlik; 4. Əbdüllətif Bəndəroğlu. "Gürgür baba". (1973), 46 beşlik; 5. Məhəmməd Mehdi Bayat. "Qaytaz baba, bir ömür dastanı". (1979), 90 beşlik; 6. Sabah Abdullah Kərküklü. "Vətən dastanı". (1988), 205 beşlik; 7. Səlahəddin Nacioğlu. "Qulam babaya salam". (1993), 174 beşlik; 8. Həsən Kevsər. "Balım babaya salam dastanı". (1995), I hissə 210, II hissə 150 beşlik; 9. Xızır Qalib Kahyagil. "El sevgisi dastanı". (2000),143 beşlik; 10. Sabir Dəmirçi. "Dədə Qəmbər - Leylan dastanı". (2001), 242 beşlik; 11. Şəmsəddin Türkmənoğlu. "Qoca Xünkâr dastanı". (2001), 135 beşlik; 12. Sabah Abdullah Kərküklü. "Nərgiz xanım dastanı". (2002), 114 beşlik; 13. Fevzi Əkrəm Tərzi. "Tuz və balam Nürdən dastanı". (2003), 193 beşlik; 14. Sabir Dəmirçi. "Aslan baba dastanı". (2005), 212 beşlik; 15. Sabir

Dəmirçi. "Azərbaycan dastanı". (2008), 100 (?) beşlik; 16. Cəlil Qazançıoğlu. "Ağsu dastanı". (2009), 108 beşlik; 17. Sabir Dəmirçi. "Canpolad dastanı". (2010), 162 beşlik; 18. Əsəd Ərbil. "Ərbil qala dastanı". (2010), 120 beşlik; 19. Məhəmməd Xurşid Qasaboğlu. "Sarıkâhya dastanı". (2010), 100 beşlik; 20. Sabir Dəmirçi. "Köylü baba dastanı". (2010), 210 beşlik; 21. Faruq Faiq Köprülü. "Türk dünyasına salam dastanı". (2011), 300 beşlik; 22. Burhan Yaralı. "Ərvildən Ərbilə dastanı". (2012), 144 beşlik; 23. Rza Çolaqoğlu. "Xızır İlyas dastanı". (2012), 164 beşlik; 24. Ədnan Əssafoğlu. "Mursa Əli dastanı". (2013), 119 beşlik; 25. Mütəsim Namiq Bayatlı. "Kifri dastanı". (2014), 106 beşlik; 26. Ömər Sabir Türkmanoğlu. "Altunköprü dastanı". (2016), 110 beşlik; 27. Məhəmməd Mərdan. "Türkmanoğlu dastanı". (2020), 102 beşlik; 28. Nihad Kahaoğlu. "Cükül Kaha dastanı (2022), 100 beşlik; 29. Mahmud Qasaboğlu. "Usta Fəttah Kəhrizçi dastanı". (2023), 110 beşlik;

İraq türkman ədəbiyyatında qadın şairlər arasında ilk dəfə Rəmziyyə Həbib Meyyas bu cığıra qoşulmuş və "Meyyas nənə dastanı" (2009) adlı dastan yazmışdır. Əsər 180 dördlükdən ibarətdir. Bu səbəbdən biz Rəmziyyə xanımın əsərini yuxarıdakı siyahıya daxil etmədik.

Yuxarıda qeyd olunduğu kimi, birinci nəzirə Hüseyn Əli Mübarəkin 1965-ci ildə yazdığı "Tuzxurmatu" şeiridir. Tuzxurmatu şivəsi ilə yazılmış bu əsər 127 beşlikdən ibarətdir. H.Ə. Mübarək şeirinə bu beşliklə başlayır:

Tuzxurmatı, səbbəh gözin açanda,
Nur orağı qaranlığı biçəndə,
Yeşil quşlar ötə-ötə uçanda
O çisəli baxçalarda gəzəydim,
Hər dost için bir dəstə gül düzəydim.

Növbəti beşlik tam "Heydərbabaya salam" şeirinin ilk beşliyini xatırladır:

Heydər baba, ildırımlar şaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Səlâm olsun şövkətizə, elizə,
Mənim də bir adım gəlsin dilizə[8].

İkinci nəzirəni İsmayıl Sərttürkman Kərkük şivəsilə yazmışdır və "Gürgür babaya salam" adlanır. 1965-ci ildə Bələdiyyə Nəşriyyatında çapdan çıxıbdır. Kərkükdə ən qədim neft quyusunun qaynağı olan Gürgür babaya şikayətnamə tərzində yazılmışdır. Bu əsər 101 beşlikdən ibarətdir. İlk beşlik belədir:

Gürgür baba, salam ossun dərinnən,
Yabançı degiləm özlər elinnən,
Nənə qucağınnan, mərdlər belinnən.
Gürgür baba, salsav bizi yadıva,
Adımız bağlıdı səniv adıva.

İ. Sərttürkman kitaba yazdığı ön sözdə Şəhriyarın "Heydərbabaya salam" şeirinin bir neçə beşliyini Əta Tərzibaşının adıçəkilən məqaləsində görüb təsirlənməsindən, bu təsirin altında qalaraq qələmə sarılıb, "Gürgür babaya salam" şeirini yazmağa başlamasından bəhs edir. Bu da onu göstərir ki, həmin tarixədək "Heydərbabaya salam" şeiri bizim ədəbi mühitə tam mətni ilə məlum deyilmiş, Ə.Tərzibaşı və İ.Daquqlunun məqalələrində nümunə kimi göstərilən beşliklərdən sonra tanınıb.

İ. Sərttürkman şeirinin aşağıda qeyd etdiyimiz son beşliyinin altında oxuculara "davamı var" vədini vermişdi. Amma bu sözünə əməl etməmiş, şeirin davamını və ya ikinci hissəsini yazmamışdır:

Yazuğ fələk dünyamızı ayırdı,
Dostı atdı, düşmanları qayırdı,
Sanki xoş günləri bir-bir sayırdı,
Maraq etmə, genə biziğ duranlar,
Fələk için dərdli tavru quranlar.

Bu ilk nümunələrdən sonra "Heydərbabaya salam" şeirinə nəzirələrin yazılması indiyədək davam edir. Türkmanelində yazılan bu əsərlər ayrı-ayrı bölgələrin bir çox mədəni, tarixi dəyərlərini, adət-ənənələrini özündə əks etdirir, söz və məna baxımından aid olduğu ləhcə və şivələrin xüsusiyyətlərini daşıyır. Bu əsərlər estetik dəyərlərlə birlikdə atalar sözləri, qəlibləşmiş söz və deyimlərdən ibarət ayrıca bir dil xəzinəsinə, zəngin söz ehtiyatına malikdir. Buna görə də mühüm ədəbi əsər olmaqla bərabər, həm də məhsuldar dil materialı yaradır. Şairlərimizin bir qismi nəzirələrdə millətin varlıq mübarizəsində göstərdiyi igidliyə, qəhrəmanlığa yer verdiyinə görə və bunlar uzun nəfəsli şeirlər olduğu üçün bunlara dastan[9] adı veribdir. Halbuki Şəhriyar "Heydərbabaya salam" poeması üçün dastan ifadəsini işlətməyibdir.

Rza Çolaqoğlu "Xızır İlyas dastanı"na ön sözündə yazır: "Əlinizdəki dastanda son dərəcə zəhmətkeş, çalışqan, əkinçi və mərd bir xalq əsrlər boyunca əkib-biçdiyi, yığıb-bişirdiyi, yaradıb inkişaf etdirdiyi və baş rolda olduğu faciəli və tarixi səhnəni nümayiş etdirmək məsuliyyətini öz üzərinə götürmüşdür"[10]...

Bütün bu əsərlər "Heydərbabaya salam" şeirində olduğu kimi, heca vəzninin 11 heca ölçüsü ilə qələmə alınıbdır. Bunların bir hissəsi dil baxımından Türkiyə türkcəsi və Azərbaycan türkcəsi ilə müqayisəli araşdırmalarda tədqiqat obyekti olubdur. Bu istiqamətdə Kərkük Universitetinin türk dili bölümünün müəllimi Kübra Sadun Cəfər çox əhəmiyyətli bir tədqiqat aparıb[11]. Tədqiqatda təsbit edilən 20 türkmən şairinə aid 23 nəzirənin tam mətni veriib, yaxud bir neçə beşlik nümunə kimi göstərilibdir. Bütün bu nümunələrə əsasən, türkman şairlərinin yazdığı nəzirələr dilçilik baxımından araşdırmaya cəlb edilibdir.

Əslində bu əsərlər təkcə dil, üslub, təhkiyə baxımından yox, həm də əsas mövzu olan bölgələrin mühüm özünəməxsus xüsusiyyətləri, insanları, onlar arasındakı münasibətlər, bu münasibətlərin spesifik xüsusiyyətləri, insanların dünyagörüşü, düşüncə tərzi, yaşadıqları bölgələrdə baş verənlərə qarşı davranışları baxımından da araşdırma obyekti sayıla bilər. Başqa sözlə, bu əsərlər sosial-mədəni və ictimai-siyasi baxımdan da mühüm materialdır.

Şəhriyar "Heydərbabaya salam" poeması ilə təkcə hamını düşündürən, heyrətə gətirən bir əsər ortaya qoymayıb, bərabər həm də türk ədəbiyyatında böyük bir cığır açmağa nail olubdur. Bu cığıra "Heydər baba cığırı" deyilə bilər: həm forma, həm də üslub baxımından illərlə təsirini davam etdirəcək bir cığırdır bu.

Milli marşımızın yazarı, dəyərli şairimiz Mahmud Qasaboğlu "Usta Fəttah Kəhrizçi dastanı" ilə bu cığırın sonuncu davamçılarından biridir. Dastan Ərbil şivəsində yazılıb, 110 beşlikdən ibarətdir. Kitabı əlinizə alanda, şübhəsiz ki, "Usta Fəttah

Kəhrizçi kimdir" sualı doğacaq. Bu, Mahmud Qasaboğlunun nəzərindən qaçmayıb və o, bu sualı belə cavablandırıbdır:

"Usta Fəttah 1854-cü ildə Ərbilin Sadunava küçəsində (məhəlləsində) anadan olmuşdur. Dini təhsil almışdır. Ata-babasından miras qalan kəhrizçilik sənətini uşaq yaşlarında öyrənmişdir. İki dəfə ailə qurmuş, yeddi övladı olmuşdur. Usta Fəttahın nəsil şəcərəsi türkman Qacar dövlətinin xanədanına qədər gedib çıxır. 1944-cü ildə Ərbildə dünyasını dəyişibdir. Şeyx Məhəmməd Xorasanlının məqbərəsində dəfn edilibdir. Ərbil və Kərkük yaxınlığında çoxlu kəhriz açıbdır. Ərbilin Ərəblər küçəsində olan Şeyx Saleh məscidinin xəritəsini şəxsən o hazırlamış, bina və qübbəsini özü inşa etmişdir"[12].

Mahmud Qasaboğlu Usta Fəttah haqqında bu dəqiq məlumatları hardan əldə etmişdir? Əslində Usta Fəttah onun babasıdır. O, təkcə kəhriz ustası deyil, həm də "bildiklərini böyük bir ustalıqla mürəkkəb və qamış qələmlə əlyazma kitabı halına gətiribdir"[13].

Yüz il əvvəl yazılmış bu kitabı Qasaboğluna ana-atası vermişdir. Qasaboğlu həm babasından qalan bu kitab vasitəsilə, həm də onu tanıyanlarla danışıb xeyli məlumat toplayıbdır. Həmin məlumatlar əsasında babasının həyat tarixçəsini qələmə alıb, dastan yazmağa başlamışdır. Bu məlumatların ən əhəmiyyətlisi ingilis işğalı zamanı Ərbildə iki il hərbi komissar olmuş Vilyam Robert Hayın yazdıqlarıdır:

"Hazırda Ərbil bölgəsində qədim dövrlərə aid bəzi qalıqlar (su kanalı qalıqları) olsa da, həqiqi mənada kanallar yoxdur. Böyük çaylardan istənilən yerə su çəkmək üçün kanallar qazılır. Bu mənada Ərbil bölgəsinin ən mühüm xüsusiyyəti kəhrizdir[14].... Təxminən altmış kəhriz hazırda işlədilir və qədimdən bəri bir çoxu yenidən qazılma mərhələsindədir. Ərbildə Fəttah usta adlı bir kəhriz ustası var. O, haranın qazılıb-qazılmayacağını, qədim bir kəhrizin nə vaxt yenidən açıla biləcəyini, istifadədə olan kəhrizin daha nə qədər çox işlənə biləcəyini böyük bir fitri istedadla və hünərlə deyən yaşlı adamdır. Ailəsinin mənsub olduğu nəsil kəhriz ustaları kimi tanınmışdır. Oğlu ölümündən sonra onun sənətini davam etdirəcək... Hərçənd ki, yeni kəhriz qazma texnikası bilmirəm, fikrimcə, Fəttah usta təkcə torpağın səthinə baxıb, qədim quyuları qazmağın daha sərfəli olduğunu bildirən məlumat verə bilər"[15].

Amma Qasaboğlu babası Usta Fəttah Kəhrizçinin dastanını yazanda təkcə onun soy-kökünü, şan-şöhrətini qələmə almaqla kifayətlənməyibdir. Şair onun dövründə insanların malik olduğu səmimiyyət, dürüstlük, mərdlik və o vaxtdan başlayaraq, ərbillilərin, xüsusilə də Ərbil türkmanlarının yaşadığı və görməməzlikdən gəlinən faciəsinə də toxunmuşdur. Dastan bu beşliklə başlayır:

Usta Fəttah, qərar verdim bu gecə,
Sənin için dastan yazım mən necə?
Dedim, olsun beşlikdən on bir hecə.
Xatırladım öz qəhrəman dədəmi,
Bu mötəbər, bu dəyərli adamı.

Sonrakı beşliklərdə o, Fəttahın "keçmişə sahib, nəvəyə malik, şan-şöhrətə sahib" bir şəxsiyyət olduğunu bəyan edir, "Həcə getmiş hacı" və yeddi uşaq atası olduğu bildirilir. Onlardan biri şairin babasıdır.

Usta Fəttah, bir oğlu Məhəmməddi,
Xalq içində adı "Usta Həmid"di,
Düşünürdü, vəzifəsi zəhmətdi.

O babamdı, nənəmin[16] öz atası,
O ustaydı, çalışırdı qafası.

Yuxarıda Usta Fəttah haqqında kitabdan gətirdiyimiz nümunələrə işarə edən beşliklər qarşımıza çıxır. Sonrakı beşliklərdə şair Usta Fəttah ilə içini gəmirən dərdlərini bölüşür. Bu dərdlər təkcə şairin özünün yox, həm də bütün millətin dərdləridir:

Usta Fəttah, Ərbil şəhri elimdi,
Öztürkcədi, türkmanca da dilimdi,
Bu dillərdə qonuşmamaq zülümdü.
Nədən nəyə döndü gözəl şəhrimiz,
Yaxdı bizi özləm, həsrət, qəhrimiz.

Usta Fəttah, gedim kimə dad edim?!
Keçmişləri xatırlıyım, yad edim?!
Birləşəlim, birliğ olaq hə, dedim.
Bəziləri öz soyunu qurutdu,
Bilə-bilə ana dilin unutdu.

Usta Fəttah, yaramızı saran yox,
Keçmiş günü xatırladıq bizlər çox,
Dağdan gələn yardım aldı, oldu tox.
Bizimkilər öz soyunnan vaz geçdi,
Özün inkar etdi, başqa dil seçdi.

Əsərin sonuna doğru Usta Fəttah möhtəşəm bir keçmişin çox gözəl qəhrəmanı kimi göstərilir, ondan milləti yaşadığı problemlərdən xilas etmək məqsədilə gözlənilməz yardımlar istənir:

Bağır səsiv düşman duysun, diskinsin,
Türkmanéli başdan-başa silkinsin.

Bu sözlər nə qədər şişirdilmiş görünsə də, onlarda keçmişə duyulan dərin kədər sezilir. Çünki:

Osmanlılar bölgəmizdən çəkildi,
İçimizdə nifaqlıqlar əkildi.

Dastan millətin qarşılaşdığı müşkül problemlərin bir qismini qarşımıza necə sərt, kəskin şəkildə qoyursa, bəzən özümüzdən utanır, bəzən də sahib olduğu cəsarətə görə, şair üçün minnətdarlıq edirik.

Yad əlində qaldı şirin yurdumuz,
Özümüzü yedi ağac qurdumuz.

Bizə bütün bu duyğuları yaşadan dastanın Ərbili həm tarixi-mədəni dəyərlərinə görə, həm də orada danışılan türkcəni fərqli bir ləhcə kimi ən incə detalları və spesifik xüsusiyyətləri ilə birgə araşdırmaq istəyənlər üçün mühüm material olduğuna əminəm.

İraq, Bağdad

[1] –Güzelyüz, A. (2021) Türkiye'de Şehriyar'la İlgili Belli Başlı Çalışmalar. Doğu Araştırmaları dergisi, sayı 24, s. 1-9.

[2] –Bax: Qardaşlıq dərgisi:

a –Daquqlu, İ. (1964) Şəhriyar və Heydərbabaya salam, sayı 4 , s. 44-47
b –Tərzibaşı Ə. (1964) Şəhriyar, sayı 6, s. 20- 22

[3] –Yenə orada: s. 22

[4] –Yenə orada: s. 23

[5] –Məhərrəm Engin'in bu yazıları sırasıyla şunlardır:

a –Şehriyara salam: sayı 29,yıl 3, mart, 1965
b –İkinci Hayder Baba'ya Selam: sayı 30, yıl 3, Nisan, 1965
c –Hayder Baba'ya Şiirin Yankıları: sayı 31, yıl 3, Mayıs, 1965
d –Azeri Şiirinin Yeni Örnekleri: sayı 32, yıl 3, Haziran, 1965
e –Nusretullah Fathi'nin Şiiri: sayı 33, yıl 3, Temmuz, 1965

[6] –"Heydərbabaya salam" şeirinin hər iki bölümünə Antoloji Şiir com. saytında baxa bilərsiniz.

[7] –Birol İpek (2023) Şehriyar'ın Heyder Baba'ya Selam Şiirine Türkiye'de Yazılan Nazireler. Akçağ Yayınları. Türkiye

[8] –"Heydərbabaya salam" şeirlərinin tam mətni üçün Antoloji Şiir com. saytına baxın.

[9] –Halbuki Şəhriyar öz əsəri üçün bu deyimi işlətməmişdir. Bəzi araşdırıcılar tərəfindən "Heydərbabaya salam" poeması dastan adlandırılmışdır.

[10] –Rza Çolaqoğlu . "Xızır İlyas dastanı" (2012), s. 12.

[11] –Kübra Sadun Cəfər .(2017) Irak Türkmen Ağızlarıyla Yazılan Haydar Baba'ya Selam Nazireler. Yüksek lisans tezi. Uludağ Üniversitesi, Türk Dili ve Edebiyatı Anabilim Dalı. Türk Dili Bilim Dalı

[12] –Usta Fəttah Kəhrizçi Dastanı. s.10

[13] –Usta Fəttah Kəhrizçi Dastanı. s. 5-6

[14] –Kəriz: Kəhriz. Kəriz uyğur dilində quyu mənasındadır. Xüsusi sistemlə suyun yerin altından yerin səthinə çıxmasına yardım edən kanala deyilir.

[15] –William Rupert Hay (2005) Kürdistan'da İki Yıl (1918-1920). İngilizceden çeviren Fahriye Adsay, Avesta yayınları, İstanbul. s. 35-36.

[16] –İraq türkmanlarının yaşadıqları bəzi bölgələrdə, o cümlədən Ərbildə anaya nənə deyilir

Azərbaycan türkcəsinə uyğunlaşdıran:
Səkinə QAYBALIYEVA